AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

14 sentyabr 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 35 (3649)



100 il

# Təhsildə islahatlar davam edir

## Dövlət başçısının diqqət və qayğısı ilə ümumi təhsil müəssisələrinin infrastrukturu müasirləşdirilir

**Prezident İlham Əliyev sentyabrın 12-də iki min şagird yerlik Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib.**



Məktəbin layihəsi Xırdalan şəhərinin ərazisindəki təhsil ocaqlarında şagird sıxlığı nəzərə alınaraq dövlətimizin başçısının tapşırıqlarına əsasən hazırlanıb və uğurla icra olunub.

Ən müasir avadanlıqla təchiz olunan funksional bina tədrisin yüksək keyfiyyətlə təşkili üçün hər cür şəraitə malikdir. Yeni məktəbdə 74 sinif, 6 informatika otağı, məktəbəqədər 2 hazırlıq otağı, 8 otaqdan ibarət STEAM Mərkəzi, 2 idman zalı, 2 əmək otağı, hərbi hazırlıq, xarici dil, musiqi, rəsm, tibb otaqları, fizika və biologiya kabinetləri, kimya laboratoriyası, kitabxana, yeməkxana və 400 nəfərlik akt zalı yaradılıb.

Prezident İlham Əliyev yeni təhsil ocağının məktəbəqədər hazırlıq, ibtidai sinif otaqlarında, biologiya kabinetində, çağırışaqədər hərbi hazırlıq otağında, STEAM Mərkəzində, fizika kabinetində, kimya laboratoriyasında, informatika otağında, idman zalında və yeməkxanada yaradılan şəraitlə tanış oldu.

Məktəbdə STEAM Mərkəzi də elektron lövhələr, kompüterlər, 3D printerlər, müvafiq öyrədici qurğular, elektron komponentlər və dəftərxana ləvazimatları ilə təmin olunub. Burada, həmçinin mühəndis emalatxanası, kiçik yaşlı uşaqlar üçün zona, təlim və robototexnika otaqları var.



Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər ölkələrin inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Son illərdə ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib.

Xırdalan şəhəri 11 saylı tam orta məktəbin ən müasir standartlara cavab verən binasının inşası da bir daha təsdiqləyir ki, ölkəmizdə təhsil islahatları Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində uğurla davam edir.

# Prezident İsrailin nazirini qəbul edib

## Əməkdaşlığın dərinləşməsi ikitərəfli münasibətlərə töhfə verir

Prezident İlham Əliyev sentyabrın 11-də ölkəmizdə səfərdə olan İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Avi Dixteri videokonfrans formatında qəbul edib.

Söhbət zamanı ikitərəfli münasibətlərimizə toxunularaq, İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun bu ilin mayında Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişlənməsinə töhfə verdiyi bildirildi.

Bir neçə gün əvvəl Azərbaycan Prezidentinin köməkçisinin İsrailə səfəri qeyd olundu, ölkəmizin İsraildə səfirliyinin açılmasının əhəmiyyəti vurğulandı.

Görüşdə kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafından və bununla bağlı təcrübə mübadiləsinin həyata keçirilməsindən məmnunluq ifadə edildi, bu sahədə əlaqələrin daha da genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu bildirildi.

Avi Dixterin səfərinin kənd təsərrüfatı sahəsində əməkdaşlığın dərinləşdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

# Azərbaycanın şərtləri yerinə yetirildi

## Ağdam-Xankəndi yolu ilə humanitar yardımın keçidinin təmini növbəti uğurdur

Azərbaycan tərəfi dəfələrlə bəyan etmişdi ki, ölkəmizin icazəsi olmadan ərazilərimizə yük maşınlarının keçirilməsi suverenliyə, ərazi bütövlüyünə qarşı cəhddir. Digər tərəfdən, Azərbaycan yüklərin daşınması üçün Ağdam-Xankəndi yolunu təklif etməklə özünün xoş niyyətini də nümayiş etdirirdi.

Ağdam-Xankəndi yolunun açılması Qarabağa humanitar yükün çatdırılmasında Azərbaycanın növbəti uğuru kimi qiymətləndirilir. Prinsipial və qətiyyətli mövqe nümayiş etdirərək yüklərin bu yoldan keçirilməsinə nail olmaq diplomatik qələbədir.

Proseslər göstərir ki, Azərbaycan hər zaman verdiyi sözə, humanizm prinsiplərinə sadiqdir, regionda təhlükəsizliyin və əmin-amanlığın bərqərar olması üçün səylərini davam etdirir.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev sentyabrın 11-də İsmayıllı rayonunda əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev sentyabrın 8-də Azərbaycan Prezidentinin 2010-cu il 24 may tarixli 274 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb. Fərmana əsasən, "Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı"nın 4.4-cü bəndində "Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan" sözləri "Orta İxtisas Polis" sözləri ilə əvəz edilib.
- Prezident İlham Əliyev sentyabrın 8-də Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun (M–3) bir hissəsinin əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# Sülhpərvər və qurucu ölkə

## Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma işləri bu məramı ifadə edir



Ölkəmiz birinci mərhələdə Qarabağ və Şərqi Zəngəzurda 9 yeni şəhər və 300-dən çox kəndi və qəsəbəni yenidən qurur. Bu, hökumət tərəfindən postmünaqişə dövründə öz maliyyə resursları hesabına həyata keçirilən misli görünməmiş yenidənqurma modelidir. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün "Böyük Qayıdış" proqramının icrasına başlanıb. "Növbəti üç il ərzində Qarabağ və Şərqi Zəngəzur rayonları üzrə 150 mindən çox insanı qaytaracağıq".

Bu fikri iyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyev "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda çıxışında deyib. Qeyd edib ki, təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Gələn il Şuşa şəhərinə birinci sakinlər gələcəklər. Artıq Baş planlar hazırlanaraq təsdiqlənib, bir çox yerlərdə fəal inşaat işləri aparılır. Təbii ki, ilk növbədə, infrastruktur layihələri icra olunur. Eyni zamanda yaşayış evlərinin inşası sürətlə aparılır.

**Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. Gələn il Şuşa şəhərinə birinci sakinlər gələcəklər. Artıq Baş planlar hazırlanaraq təsdiqlənib, bir çox yerlərdə fəal inşaat işləri aparılır.**

Prezident İlham Əliyev Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" bayram tədbirində çıxışı zamanı deyib: "Əminəm ki, siz öz dədə-baba torpağınızda rahat, xoşbəxt yaşayacaqsınız. Siz buna layiqsiniz. 30 il siz həm fiziki, həm də mənəvi əzab çəkmisiniz. Bu gün isə artıq dirçələn Laçın, dirçələn Qarabağ, dirçələn Şərqi Zəngəzur bizim gücümüzü göstərir və onu göstərir ki, biz istədiyimizə hər zaman nail oluruq".

Bütün bunlar əlbəttə ki, Azərbaycanın Cənubi Qafqazda dayanıqlı sülhün, qarşılıqlı əməkdaşlığın təmin edilməsində maraqlı olduğunu sübut edir. Dövlətimiz vətəndaşlarının rahatlığı üçün hər şey edir. Prezident İlham Əliyev müasir dövlət quruculuğunun yeni mərhələsini həyata keçirir, Azərbaycan dövlətini daha güclü, daha qüdrətli edir.

İctimai sabitlik başlıca şərtdir 2

Bu yerlərin hər qarışı Vətəndir 2

Ümidlərin itmədiyi ünvan... 3

Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları 4

## RESPUBLİKA XƏBƏRLƏRİ

### İqtisadi Şuranın növbəti iclası keçirilib

Sentyabrın 12-də İqtisadi Şuranın növbəti iclası keçirilib. Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Azərbaycan Respublikası Prezidentinin 2024-cü il və orta müddətli dövr üçün müəyyən etdiyi prioritetlərin və hədəflərin əsasında hazırlanan 2024-cü və sonrakı üç il üzrə icmal və dövlət büdcələrinin proqnoz göstəriciləri, büdcə proqnozlarında istifadə olunan əsas fərziyyələr, büdcə qaydasının parametrləri üzrə hədəf göstəriciləri, 2024-2027-ci illərdə büdcə siyasəti, milli xərc prioritetləri, Böyük qayıdış Proqramının maliyyələşdirilməsi və digər cari məsələlər ətraflı müzakirə olunub.İclasın yekununda aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

### Milli Məclis müraciət ünvanlayıb

Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri və beynəlxalq parlament təşkilatlarında Azərbaycan nümayəndə heyətlərinin başçıları Azərbaycanın Qarabağ bölgəsində Ermənistan tərəfindən yaradılmış qondarma rejimin sentyabrın 9-da keçirilmiş "seçkilər" adlı qanunsuz fəaliyyəti barədə beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə və xarici ölkələrin parlamentlərinə müraciət ünvanlayıblar. Müraciətdə Ermənistanın Azərbaycanın Qarabağ bölgəsində yaratdığı qondarma rejimin "prezident seçkiləri" adı altında apardığı qanunsuz fəaliyyətin Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını və beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozduğu bildirilib.

### Sülhməramlıların komandanı təqdim edilib

Sentyabrın 12-də Rusiya Federasiyası Quru Qoşunlarının komandanı ordu generalı Oleq Salyukov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin yeni komandanı general-mayor Kirill Kulakovu müdafiə naziri general-polkovnik Zakir Həsənova təqdim edib. Azərbaycan Müdafiə Nazirliyindən bildirilib ki, görüşdə Qarabağ iqtisadi rayonunda əməliyyat şəraiti barədə danışan general-polkovnik Z.Həsənov son zamanlarda qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən törədilən təxribatların sayının artdığını vurğulayıb.

### Ermənistanın mina terroru davam edir

"1991-ci ildən bu günə kimi 3385 azərbaycanlı Ermənistanın basdırdığı minaların qurbanı olub. Bunlar Ermənistanın Azərbaycana qarşı sistemli və məqsədyönlü şəkildə mina terroru siyasətinin dəhşətli rəqəmləridir". Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında paylaşımında belə yazıb. O, qeyd edib ki, Ermənistan və qeyri-qanuni marionet xunta rejimi Ermənistanda istehsal olunan minaları "boz zona"nın bütün perimetrləri boyunca yerləşdirməyə davam edir.

### Təhlükəsizlik aylığı keçirilir

DİN-in Baş Dövlət Yol Polisi İdarəsi yeni tədris ilinin başlaması ilə əlaqədar əhaliyə müraciət edib. Müraciətdə deyilir ki, ölkəmizdə yeni dərs ilinin başlanması küçə və yollarda təhsilalanların, xüsusilə uşaq və yeniyetmələrin yol hərəkəti ilə bağlı həyat və sağlamlıqlarının qorunması işində daha effektiv tədbirlərin görülməsini zəruri edir. Daxili İşlər Nazirliyinin müvafiq göstərişinə əsasən, bu sahədə ardıcıl həyata keçirilən nəzarət-profilaktik tədbirlərin daha da gücləndirilməsi məqsədilə, cari ilin sentyabr ayının 10-dan oktyabr ayının 10-dək respublika ərazisində "Diqqət, uşaqlar!" adı altında hərəkətin təhlükəsizliyi aylığının keçirilməsinə başlanılıb. Tədbir çərçivəsində qabaqlayıcı tədbirlərin gücləndirilməsi nəzərdə tutulub.

### Şəhid ailələrinin mənzil şəraiti yaxşılaşdırılır

Bu ilin sonunadək əhalinin həssas kateqoriyasından olan şəxslərə, şəhid ailələri və müharibə əlilliyi olan ailələrə 1500 mənzil veriləcək. Bununla bağlı əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov qeyd edib ki, hazırda həmin evlərin 650-si artıq təhvil verilib.

### Sosial müdafiə tədbirləri gücləndirilir

Valideyn himayəsindən məhrum olmuş 18 yaşına çatan şəxslər üçün yeni güzəşt tətbiq olunacaq. Bu, Milli Məclisin Əmək və sosial siyasət komitəsində müzakirə edilən "Sosial xidmət haqqında" qanuna edilən dəyişiklikdə öz əksini tapıb. Qanuna təklif edilən dəyişikliyə əsasən, həmin şəxslər çətin şəraitə düşmüş insanlar kateqoriyasına aid olunacaq və onlar da ev alana qədər dövlət müəssisələrində yaşayış yeri ilə təmin ediləcəklər. Eyni zamanda onları daha tez siyahıya salıb mənzillərlə təmin etmək mümkün olacaq.

# İctimai sabitlik başlıca şərtdir

## Ulu öndər Heydər Əliyev: "Polis peşəsi ağır peşədir. O, bir tərəfdən yüksək vətəndaşlıq məsuliyyəti, cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil və təcrübə tələb edir..."



Azərbaycan cəmiyyətində hər kəs öz təhlükəsizliyinə arxayındır. Bu arxayınçılıq ildən-ilə möhkəmlənir.

İctimai həyatın müxtəlif istiqamətlərində çalışan insanlar arasında polis peşəsi çətinlik və məsuliyyətilə seçilir. Hər bir insanın "tərcümeyi-hal"ında kifayət qədər çətin anlar olur. Bu təbiidir. Həyatın elə çağları, məqamları, hətta anları var ki, onlar insanın daxilində mənəvi öhdəlik yaradır. Çətinliklər insana təkcə ağrıacı yox, həm də kamillik, müdriklik verir. Həmin o müdriklik insanın əlindən yapışır ki, insan yolunu inamla getsin, çətinliklərə üstün gəlməyi bacarsın. Hər bir polis tam şəkildə dərk edir ki, Vətən sevgisi sözlə deyil, əməllə sübut olunur və bunun üçün yüksək hazırlıq, peşəkarlıq, qabiliyyət əsas meyardır.

Gecə-gündüz ictimai qaydaya nəzarət edən polislər hər cür gözlənilməz hadisəyə, eləcə də fədakarlığa hazır olurlar. Ona görə də polis andı, polis adı ucadır. Ulu öndər Heydər Əliyev 1998-ci ildə Azərbaycan Polisinin şəxsi heyətinə müraciətində polisin ideya və istiqamətlərini aydın göstərərək vurğulayırdı ki, polis peşəsi ağır peşədir: "O, bir tərəfdən yüksək vətəndaşlıq məsuliyyəti, cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil və təcrübə tələb edir. Bunların hamısı bir yerdə cəmləşməsə, biz layiqli və mütəşəkkil polis yarada bilmərik. Cinayətkarlığın qarşısının alınması, dövlətin yaratdığı bütün imkanlardan respublika vətəndaşlarının bəhrələnməsi üçün dinc şəraitin təmin edilməsi, asayişin və qanunçuluğun möhkəmləndirilməsi naminə polis daim öz peşəkar səviyyəsini yüksəltməli, gündəlik işini müasir tələblərə, beynəlxalq təcrübəyə və normalara uyğun qurmalıdır".

Azərbaycan yalnız dinamik iqtisadi inkişaf tempinə görə deyil, həm də cinayətkarlığa qarşı mübarizədə və əmin-amanlığın qorunması sahəsində lider dövlətlərdəndir. Xalqımızın demokratik-hüquqi dövlətdə yaşamaq idealının real və dayanıqlı olması üçün ictimai sabitlik başlıca şərtdir.

Polis necə işləməlidir ki, hamı razı qalsın? "Cinayət varsa, cəza olacaqdır" reallığı cəmiyyət inkişaf etdikcə polisin məsuliyyətini ikiqat artırır. İnsan əməllərinə görə məsuliyyət daşıyır, "şərait" cinayətə bəraət qazandırmır. İlk baxışdan sadə görünən bu sözdə böyük bir hikmət var.

Bu gün birmənalı demək olar ki, Azərbaycanda vətəndaşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə görülən işlər beynəlxalq təşkilatlar, dünya dövlətləri tərəfindən də yüksək dəyərləndirilir.

Qərb və Avropa təmsilçiləri bu fikri daim bəyan edirlər ki, Azərbaycanda ictimai sabitlik etibarlı qorunur. Azərbaycan çoxsaylı beynəlxalq tədbirlərə, forumlara, konfranslara ev sahibliyi edir, dünyada tolerantlıq məkanı, dözümlülük, multikulturalizm mərkəzi kimi tanınır.

# Bu yerlərin hər qarışı Vətəndir

## Tarix yazan, tarixdə qalan oğullar heç vaxt unudulmayacaq

*(Əvvəli ötən sayımızda)*

### Şəhid qəbirləri bizi salamlayır

Yol qıraqlarında qəbirlər görünür. Bələdçimiz deyir ki, onlar birinci Qarabağ döyüşlərində şəhid olanların qəbirləridir.

### Enerji qovşaqları, avtolizinq və digər vacib obyektlər

Zəngilan Qubadlı yolunun üstündə Avtolizinq fəaliyyət göstərir. Azərenerjinin "Cəbrayıl" enerji qovşağı gələcəkdə burda qurulan, tikilən evləri enerji ilə tam təmin edəcək. İşğaldan əvvəl bu yolların qıraqlarını yamyaşıl ağaclar bəzəyirmiş. Varlığımıza qənim kəsilən düşmənlərimiz təbiətimizi, flora və faunamızı da soyqırımına məruz qoyublar.

### Dağlıq ərazidə döyüş çətin olur

Qanlı döyüşlərin nişanələri dəyir gözümüzə. Düşmən səngərləri darmadağın olub. Canlı qüvvənin irəliləməsi çətin və ərazinin relyefi dağlıq olduğundan Vətən müharibəsində "Bayraktar"ların cövlan etdiyi yerlərdir, bu yerlər.

### Bu da Ağalı kəndi-Qafqazın ilk "ağıllı kənd"i

Bu kəndə köçürülənlər ermənilərin işğal dövründə tamamilə dağıtdıqları 1-ci, 2-ci və 3-cü Ağalı kəndinin sakinləridir. Bugünədək Ağalı kəndində daimi məskunlaşdırılan ailələrin sayı 108-ə (526 nəfərə) çatıb. Yaradılan şərait göz önündədir və yaşıl kirəmitli evlər




xoşbəxtliyin nişanəsidir.

### Qaçaq Nəbinin yurdu

Qubadlı da yenidən qurulur. Birinci Qarabağ müharibəsindən sonra ötən müddət ərzində burada Suriyadan olan ermənilər məskunlaşmışdı. Qəhrəmanlar yurdunda Vətən müharibəsi qəhrəmanı polkovnik Şükür Həmidovun ruhunu ehtiramla anırıq. Yoxluğu ağrımıza çevrilsə də təsəllimiz onun ata yurduna qovuşduqdan sonra şəhid kimi haqqın dərgahına ucalmasıdır.

### Dərdli axmır Həkəri

Bəli, Laçındayıq. Bizi coşqun suları ilə salamlayan Həkərinin 30 il ərzində necə yanğı, necə həsrət ilə axdığını bir anlıq təsəvvür edə bildinizmi? Bu Laçın dəhlizi, bayrağımız ucalan isə postumuzdur. Xankəndində yaşayan erməni vətəndaşlarımıza Ermənistandan guya "humanitar yardım" gətirən TIR-lar boynu bükük gözləyirlər. Guya onlar bu şou ilə beynəlxalq aləmə təsir etmək istəyirlər. Ancaq unudurlar ki, regionda söz sahibi Azərbaycan dövlətidir və o ərazi bütövlüyümüzə yönələn bütün təhdidlərin, hərbi müdaxilənin qarşısını almağa istər döyüş, istərsə də diplomatiya meydanında qadirdir.

Əslində, o TIR-ların dayandığı yerlər də tarixi Azərbaycan torpaqlarıdır. Bunu düşmən də yaxşı bilir, havadarları da. Cənab Prezident bunu çıxışlarında dəfələrlə ifadə edib və o yerlərə dönmək əzmimizin bariz nümunəsi də Zəngəzur dəhlizidir ki, açılması çox zaman almayacaq.

### Keçmiş döyüşçü, təqaüddə olan polis veteranı

"Bura gəlməyinizi oğlum Rauf-dan öyrəndim. Həm sizinlə çörək kəsmək istədim, həm də keçənləri xatırlamaq. Bu torpaqlar bizim qanımızla suvarılıb. Əhalisinin sayı 80 min olan Laçının 5 Milli Qəhrəmanı var ki, onun da 4-ü polisdir. Laçın Rayon Polis Şöbəsi döyüşlərdə 45 nəfər şəhid verib. Horadizin alınması bügünkü qələbəmizin bünövrəsidir. Əgər o zaman ulu öndər Ali Baş Komandan kimi bu döyüşə rəhbərlik etməsəydi, xalqımızın da, dövlətimizin də taleyi sual altında qalacaqdı", - deyir təqaüddə olan polis polkovniki, keçmiş döyüşçü Rəhim Novruzov.

### Laçın kimi Laçın polisi

Laçın Rayon Polis Şöbəsi rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi, polis polkovnik-leytenantı Aqşin Məmmədov bizi Laçınla tanış etmək, onun gəzməli-görməli yerlərini göstərmək "məsuliyyət"ini öz üzərinə götürüb. Görmək həsrətində olduğumuz yerlərdən biri Laçın Polis Şöbəsinin ilk şəhidi Azərbaycan Milli Qəhrəmanı Oqtay Güləliyevin ata ocağı idi. Qəhrəmanımızın ata evi dövlətimiz tərəfindən yenidən tikilir. Burada, özü də çox yaxın zamanda onun doğmaları, övladları, nəvələri yaşayacaqlar.

Aqşin Məmmədov da polis döyüşçülərdəndir. Daha doğrusu, onun barəsində məlumatı Rəhim Novruzov diqqətimizə çatdırır. Öyrənirik ki, həmkarımız Laçında doğulub. Laçından çıxanda 23 yaşı olub. O, 1993-cü ilin noyabrında daxili işlər orqanlarının sıralarına qəbul olunub. 1993-cü ilin dekabrında baş verən hadisə isə onun həyatının və xidmətinin dönüş nöqtəsi olur: "Biz Bala Bəhmənli istiqamətində postda idik. Ermənilər Füzuli cəbhəsini yarıb Beyləqanı götürmək istəyirdilər. Həmin vaxt mən düşmənin hücuma keçən tankını məhv elədim. Bu, ulu öndər Heydər Əliyevə məruzə olundu. Dekabrın 18-də "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmağım məni və silahdaşlarımı daha da ruhlandırdı. Elə həmin vaxtdan Laçın polisində xidmət edirəm. Məqsədim Laçına gəlmək idi. Mənə müxtəlif yerlərdə xidmət etməyi təklif etdilər. Ancaq mən burda xidmət etməyi üstün tutdum və indi Vətənimdəyəm. Elə burdan da təqaüdə çıxacağam"...

*(Ardı var)*

***Hafiz Təmirov***
***polis polkovnik-leytenantı***

# Ümidlərin itmədiyi ünvan...

## "Tapıntılar bürosu"nda gördüklərimiz və eşitdiklərimiz






**Vətəndaşlıq mövqeyi nümayiş etdirib tapdığı sənədi, əşyanı təhvil verən və ya itirdiklərini axtaran şəxsin yolu adətən Bakı Şəhər Baş Polis İdarəsinin "Tapıntılar bürosu"na düşür. Hər il yüzlərlə itki sahibi ümidlə bu ünvana üz tutur.**

### On yeddi ilin bir günü...

Əsas vəzifəsi fiziki və hüquqi şəxslərdən daxil olan tapılmış əşya və sənədlərin qəbulu, uçotu, saxlanılması və sahiblərinə qaytarılmasından ibarət olan büro 2006-cı ildən etibarən fəaliyyət göstərir. On yeddi illik büronun bir günlük işini görmək və "reportyor gözü" ilə göstərmək üçün biz də oraya yollanırıq. Büroya çatanda polis əməkdaşları sənəd axtarışı üçün müraciət edən vətəndaşların ərizələrini qəbul edib, sənədləşmə və axtarış prosedurunu izah edirdilər.

Fürsətdən istifadə edib onlardan biri, Mirəli adlı paytaxt sakini ilə söhbət edirik. İkinci kurs tələbəsi olan müsahibimiz deyir ki, büro haqqında əvvəlcədən məlumatlı olub, hətta yaxınlarından əşya və ya sənəd itirən olanda buraya yönəldib: "Bir neçə gün əvvəl isə özüm sənədimi itirmişəm. İndi onun burda olub-olmadığını öyrənmək üçün müraciət etməyə gəlmişəm".

Sənədini axtaran vətəndaşa ərizə ilə müraciət etmə qaydasını izah edən polis nəfəri, polis baş serjantı Mazan Nuriyev bildirir ki, itirilmiş sənəd və əşya axtarışı barədə daxil olmuş müraciətlərə 10 gün müddətinədək, xüsusi yoxlama aparılması zəruri hesab edilməyən hallarda isə 3 iş günü ərzində baxılır. Daha sonra bu haqda vətəndaşlara büronun möhürü ilə təsdiq edilmiş arayış verilir.

### Bakıda itirilənlər büroda axtarılır

Burada öyrənirik ki, tapılmış əşyalar, adsız və ünvansız sənədlər 1 ay müddətində saxlanılır. Həmin müddətdə sahibi aşkar edilmədikdə isə onlar tarixi, mədəni, maddi və digər dəyərlərindən asılı olaraq aidiyyəti üzrə təhvil verilir. Şəxsi sənədlər (ümumvətəndaş pasportu, şəxsiyyət vəsiqəsi, hərbi bilet, tələbə bileti və s. ) 10 gün müddətində saxlanılır. Bu müddətdə müraciət edilmədikdə sahiblərinin yeri müəyyən olunaraq özlərinə qaytarılır, sənədlərin etibarlılıq müddəti bitdikdə isə vətəndaşların qeydiyyatda olduğu ərazi polis orqanlarına, hərbi biletlər isə aidiyyəti üzrə səfərbərlik xidmətinə göndərilir. "ASAN xidmət" mərkəzlərində, ayrı-ayrı dövlət orqanlarında unudulan sənəd və əşyalar da "Tapıntılar bürosu"na təhvil verilir.

Həmkarımız bizə deyir ki, vətəndaş tapdığı sənəd və ya əşyanı ərazi polis orqanlarına da verə bilər. Yerli polis orqanında bir ay ərzində itirilmiş sənədin, əşyanın sahibi tapılmasa, onda məktub əsasında büroya göndərilir. Ancaq elə vətəndaşlar da var ki, polisin bu spesifik xidməti haqda məlumatlıdır və tapdıqlarını gətirib özləri təhvil verirlər. Ümumiyyətlə, paytaxtda itirilənlər barədə büroya, bölgələrdə isə rayon polis şöbələrinə müraciət olunur.

Cari ilin sentyabrına qədər təhvil vermə və axtarma ilə bağlı büroya 2000-ə yaxın müraciət daxil olub. Ən çox nikah şəhadətnaməsi, şəxsiyyət vəsiqəsi, diplom, tələbə bileti, attestat, sürücülük vəsiqəsi, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi və s. bağlı müraciətlər edilir.

### Əsas meyar vətəndaşı məmnun etməkdir

Büronun digər əməkdaşı, polis baş serjantı Sahil Qurbanov əlavə edir ki, vətəndaş məmnunluğunun təmin edilməsi "Tapıntılar bürosu"nun fəaliyyətində əsas tələb kimi müəyyən edilib. Bütün müraciətlər daxil olduğu andan diqqətdə saxlanılır və qanunla müəyyən edilmiş vaxt ərzində baxılır: "Bəzən tapılan sənədlərin, əşyaların sahibləri müəyyən edilmiş vaxt ərzində gəlib sənədini götürmür. Məsələn, 2018-ci ildə "ASAN xidmət" mərkəzində diplomunu unutmuş vətəndaş bu günlərdə müraciət edib ki, o zaman təhvil götürməli olduğu sənədi ona verək. Aydındır ki, saxlanılma müddəti keçdiyinə görə belə sənədlər aidiyyəti üzrə təhvil verilir".

Bu kimi hallarda belə vətəndaşa kömək etməyi özlərinə borc bilən polis əməkdaşları bütün mümkün vasitələrdən istifadə edib sənədin tapılmasına çalışdıqlarını söylədilər. Vətəndaşa yeni sənəd əldə etməsi üçün müvafiq arayış da təqdim edilib.

Adi iş günləri saat 09:00-dan 19:00-dək, şənbə günləri isə saat 09:00-dan 15:00-dək fəaliyyət göstərən bürodan ayrılanda günün yarısı xeyli keçmişdi. İtirdiklərini axtaran vətəndaşlar isə ümidlə büroya gəlməkdəydilər...

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Polisə təşəkkür edirlər...

## Vətəndaş təhlükəni hiss etmir, çünki güvəndiyi polis var

**Hadisələrə adekvat və operativ reaksiya vermək, baş verə biləcək cinayətlərin qarşısını qətiyyətlə almaq, hədəf meyarlarını müəyyənləşdirmək fəaliyyətin əsas hissəsidir.**

Bu gün həm də ictimaiyyətlə əlaqələri gücləndirmək polisin qarşıya qoyduğu məqsədlərdən biridir.

Vətəndaş Ziya Səfərli DİN-ə ünvanladığı müraciətində yazır: "Koroğlu metrostansiyasında anidən halım pisləşdi, huşumu itirdim. Gözümü açanda isə ilk olaraq başımın üstündə dayanıb mənə qayğı göstərən polis əməkdaşlarını gördüm. Məlum oldu ki, təzyiqim çox aşağı düşüb. Sağ olsunlar, polislərin köməkliyi sayəsində həyati təhlükəmi atlatdım".

Sumqayıt şəhər sakini Ədalət Babayev təşəkkür məktubunda yazır: "Dələduzluğa məruz qalmışdım. Ancaq inanırdım ki, polisə şikayət etsəm problemim həllini tapacaq. Elə də oldu. Nərimanov Rayon Polis İdarəsində müraciətimə operativ şəkildə baxıldı və mənə dəyən ziyan tam şəkildə ödətdirildi".

Paytaxt sakini Vüsalə Həmidzadə isə şikayətinə operativ baxılaraq obyektiv araşdırılmasına görə Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirib.

Bərdə rayon sakini Ənvər Yusifov DİN rəhbərliyi başda olmaqla Azərbaycan Polisinin şəhid ailələrinə və qazilərə göstərdikləri diqqət və qayğını yüksək dəyərləndirir.



Bakı şəhər sakini Miryaqub Fərəcov baş vermiş yol-nəqliyyat hadisəsi ilə bağlı müraciətinə operativ və obyektiv baxılaraq ona dəymiş ziyanın ödənilməsində göstərdikləri köməkliyə görə Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

İnstaqram istifadəçisi Aytac İsmayılova yazır ki, sosial şəbəkədə təhqir olunması ilə bağlı müraciətinə tez bir zamanda baxılıb və problem həllini tapıb.

Masallı rayon sakini Anar Əzimov Azərbaycan Polisinin gərgin xidməti fəaliyyətini təqdir edir, narkotiklərin qanunsuz dövriyyəsinə və narkomaniyaya qarşı qətiyyətli mübarizə tədbirlərinə görə DİN rəhbərliyi başda olmaqla Masallı Rayon Polis Şöbəsinin əməkdaşlarına minnətdarlığını ifadə edir.

Paytaxt sakini Bəsti Balakişiyeva ona 138 min manat borcu olan, ödəməkdən yayınmasına görə axtarışda olan şəxsin tez bir zamanda tapılmasında göstərdikləri köməkliyə görə Nərimanov RPİ 16-cı Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirib.

Bakı şəhər sakini Aynurə İsayeva isə dələduzluğa məruz qalması ilə bağlı müraciətinə operativ baxılaraq obyektiv araşdırma aparılmasına görə Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# Yalan məlumatlar yayan şəxs həbs edilib

## DİN sosial şəbəkələrdə Azərbaycan Ordusu və hərbçiləri ilə bağlı yalan məlumatlar paylaşan şəxslərlə bağlı tədbirlər görür

Tədbirlərlə "Tik-Tok" platformasında feyk profillər vasitəsilə döyüş əməliyyatları və itkilər olması ilə bağlı yalan məlumatlar paylaşan şəxs - 1998-ci il təvəllüdlü İbrahimli Pərviz Vüqar oğlu polis əməkdaşları tərəfindən müəyyən olunaraq saxlanılıb. Araşdırmalarla onun bu qəbildən olan məlumatları paylaşmaqda məqsədi öyrənilib. Onun əməllərində inzibati xətanın tərkib əlamətləri olduğundan barəsində toplanan materiallar baxılması üçün məhkəməyə göndərilib. Abşeron Rayon Məhkəməsinin qərarı ilə Pərviz İbrahimli barəsində 15 sutka inzibati tənbeh tədbiri tətbiq edilib.

# Taksi fəaliyyəti təkmilləşdirilir

## Yeni tələblər, qaydalar nəyi dəyişəcək?

Bakıda taksilərlə bağlı şikayətlər, həm sərnişinlərin, həm də sürücülərin artan narazılıqları bu sahədə tənzimləmələrin həyata keçirilməsinə, qanunda dəyişiklik edilməsinə zərurət yaradıb. Məsələ belə idi ki, sərnişinlər xidmətin keyfiyyətindən narazılıq edir, sürücülər isə qiymətin ucuzluğundan şikayətlənirdilər.

Eyni zamanda, kimliyindən, avtomobil idarə etmək səriştəsindən, sağlamlıq durumundan asılı olmayaraq hər kəs taksi sürücüsü kimi fəaliyyət göstərirdi.

### Qanunun pozulmasına görə cərimələr tətbiq ediləcək

Son zamanlar, həmçinin, taksi sürücülərinin müştərilərlə qeyri-etik davranışları da artmışdı. Bütün bunlar nəzərə alınaraq "Avtomobil nəqliyyatı haqqında" qanuna dəyişiklik edildi. Dəyişiklərdə sərnişindaşıma fəaliyyətindən tutmuş sürücülərin işə götürülməsinə qədər müəyyən tələblər yer aldı.

Qanuna əsasən, taksi sifarişi operatorları fərdi məlumatlarını dövlət qeydiyyatında keçirməli və bu məlumatların mühafizəsi ilə bağlı tələblərə riayət etməlidirlər. Araşdırmalara əsasən Azərbaycanda təxminən 40 min taksi fəaliyyət göstərir ki, onun 28 mini Bakının payına düşür. Taksilərin 90 faizi onlayn platformalar üzərindən fəaliyyət göstərir.

Qanuna edilən dəyişikliklərə görə, taksi sifarişi operatoru fəaliyyətinə icazənin verilməsi üçün 3 min manat rüsum ödəməlidir. Bundan əlavə, taksi ilə sərnişin daşımaq üçün qiyməti 125 manat olan buraxılış vəsiqəsi və qiyməti 25 manat olan buraxılış kartı əldə etməlidir. Taksi sifarişi operatoru tərəfindən minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsi və müvafiq buraxılış kartı olmayan daşıyıcıya və ya sürücüyə xidmətin göstərilməsi qadağan edilib. Buraxılış vəsiqələri 7 il müddətinə verilir.

# Narkotacirlərə daha bir zərbə

## Keçmiş məhkumların yolu yenidən həbsxanaya düşüb

DİN Nəqliyyatda Baş Polis İdarəsinin Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları tərəfindən narkotik maddələrin qanunsuz dövriyyəyə buraxılmasının qarşısının alınması istiqamətində növbəti əməliyyat həyata keçirilib.



İdarəyə xidməti ərazi olan Şirvan Milli Parkında naməlum şəxslərin ölkəyə satış məqsədilə göndərilən narkotikləri qəbul edəcəyi barədə əməliyyat məlumatı daxil olub. Dərhal qeyd edilən ərazi su polisləri tərəfindən nəzarətə götürülüb. Bir müddətdən sonra əvvəlcədən təyin edilən koordinatın yerini xüsusi texniki avadanlıqla müəyyən edərək həmin ünvana yaxınlaşan naməlum şəxslər narkotik vasitələri əldə edərək uzaqlaşmaq istəyən zaman su polisləri tərəfindən saxlanılıblar.

Araşdırmalar zamanı onların əvvəllər məhkum olunmuş Akif Şahbazov, Bəhram Səlimov, Elnur İmanov və Həsənqulu Axundov olduğu müəyyən edilib. Sonuncunun idarə etdiyi avtomobilə baxış zamanı nəqliyyat vasitəsinin yük yerindən 10 kiloqrama yaxın, o cümlədən 5 kiloqram 93 qram tiryək, 4 kiloqram 625 qram marixuana və 5 min ədəd psixotrop tərkibli "Metadon" həbi aşkar edilib. Saxlanılan şəxslər təkzibedilməz faktlar qarşısında törətdikləri cinayəti etiraf ediblər.

Faktla bağlı Su Nəqliyyatında Polis İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, istintaq və əməliyyat tədbirləri davam etdirilir.

*Anar Qafarav*
*polis mayoru*

# Qanunsuz saxlanılan ov silahları

## Polis risk yaradan təhlükələrə qarşı tədbirlər keçirir

Şəmkir Rayon Polis Şöbəsinin və onun tabeli qurumlarının əməkdaşları qanunsuz saxlanılan silah-sursatın aşkarlanaraq götürülməsi və gələcəkdə baş verə biləcək cinayətlərin qarşısının alınması istiqamətində əməliyyat-axtarış və profilaktiki tədbirləri davam etdirir.

Keçirilən tədbirlər nəticəsində 17 nəfər rayon sakinindən müvafiq sənədləri olmayan müxtəlif marka və kalibrli ov tüfəngləri aşkar edilərək götürülüb. Həmin silahlar ekspertizaya göndərilib, sahibləri ilə profilaktiki söhbət aparılaraq barələrində qanunamüvafiq tədbir görülüb. Qeyd edək ki, Şəmkir Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlər nəticəsində də cari ilin ötən dövründə 82 ədəd müxtəlif marka və kalibrli ov tüfəngləri aşkar edilərək götürülüb.

*Eşqin Qasımov*
*polis kapitanı*

# Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Müəmmalı qadın gizlənir

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları



**1828-ci ildə Vidokun elmi-fəlsəfi memuar xarakterli "Parisin sirləri", "Oğru: əxlaq və psixologiya" əsərləri Onore de Balzakın yazdığı ön sözlə nəşr olunub. Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri tərbiyəvi mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Bunu nəzərə alaraq, hələ bir neçə il əvvəl Vidokun "Parisin sirləri", "Oğru: əxlaq və psixologiya" əsərlərindən parçaların ilk dəfə Azərbaycan dilinə tərcüməsinə başlamışdıq. Üzərindən uzun illər, onilliklər ötsə də, bu "konstitusiya" qüvvədən düşmür. Odur ki, yenidən və daha təfsilatlı tərcümə ilə əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarına qayıdırıq.**

*(Əvvəli ötən sayımızda)*

Buna görə, ona himayədar kimi baxırdılar. Xanım Noel onların qeydinə o qədər qalırdı ki, hətta iş axtarırdı, pasport lazım olanda, onu əldə edənə qədər sakitləşmirdi.

Xanım Noelin qadınlardan ibarət geniş tanışlar çevrəsi varıydı, adətən pasport onlardan birinin adına alınırdı. Bu pasportda xüsusi məhsul ilə adı, soyadı, əlamətləri silir və başqalarını yazırdılar. Xanım Noel hər ehtimala qarşı bu cür pasportların bütöv kolleksiyasını saxlayırdı.

Bütün katorqaçılar – residivistlər xanım Noelin övladlarıydı, amma o, daha çox oğlunun tanışları, yoldaşlarına qayğı göstərirdi. Onun evinin qapıları bütün qaçaq katorqaçıların üzünə açığıydı, onlar da xanım Noeli sevirdilər, hətta ona bir dəfə baş çəkmək üçün riskə getməkdən belə çəkinmirdilər. Xanım Noel onların bütün sirlərini, gizlinlərini, planlarını, qorxularını bilirdi. Onlar xanım Noelə tam etibar edirdilər, ümid edirdilər, sadiqliyinə sarsılmaz qaya kimi güvənirdilər.

Xanım Noel heç vaxt məni üzdən görməmişdi, üz cizgilərim ona tanış deyildi, amma adımı tez-tez eşitmişdi. Buna görə, şübhə doğurmadan onun yanına gedə bilməzdim. Amma, mən qarşıma məqsəd qoymuşdum ki, axtardığım adamların harada gizləndiklərini ondan öyrənməliyəm. Hiss edirdim ki, planımı həyata keçirmək üçün çox çalışmalı olacağam. İlk növbədə özümü onun oğlu və yaxud oğlunun yoldaşlarının yaxşı təqdim etdiyi qaçaq oğrulardan biri kimi qələmə verməyi qərarlaşdırdım. Bundan əlavə görkəmcə özümü ona oxşatmalıydım.

### Hər bir cinayətkar bir qiyafənin altında gizlənib

Tanıdığım bütün katorqaçılarıı yada saldım, amma xanım Noelin oğlu ilə yaxşı münasibətdə olan heç kim yoxuydu, yaddaşımı qurdalayaraq "Kapitan" ləqəbli Jermenin üstündə dayandım. O, Noel ilə yaxınıydı, amma heç mənə oxşamırdı, buna baxmayaraq onun adından istifadə etməyə qərar verdim. O, da mənim kimi dəfələrlə katorqadan qaçmışdı, aramızda tək oxşarlıq bundan ibarət idi. O, arığıydı, mən isə kifayət qədər cüssəliydim, o, qarayanızıydı, mən isə ağbənizidim. Jermenin uzun burnu varıydı, burnunda danışırdı. Jermen rolunu oynamaq üçün çox zəhmət çəkməli oldum.

Amma çətinliklər məni qorxutmurdu, katorqaçıların tərzində qısa kəsilən saçlarımı qara rəngə boyadım, bir həftə ərzində saxladığım saqqal da qara rəngləndi. Çevrilməmi tamamlamaq, sifətimin rəngini qarayanız etmək üçün qoz qabığı məlhəmindən istifadə etdim, burunda danışmağı da məşq etdim. Ayaqlarımın da üzərində işlədim, özümə Brestdən verilən resept əsasında süni şiş düzəltdim. Buxovların da izini düzəltməyə nail oldum. Bu əməliyyatlar bitdikdən sonra vəziyyətimə uyğun gələn paltar geyindim. Mənə orijinala oxşamaq imkanı verən heç bir cizgini yaddan çıxarmadım. Q.A.L hərflərinin həkk edildiyi alt paltarı, ayaqqabıları da unutmadım. Səfillərin, dilənçilərin yaşadığı yerlərə xas olan həşəratlar çatmırdı, onları da satın aldım. Hər şey hazır olduqdan sonra Noel xanımgilə yollandım.

Evə gəldim və qapını döydüm, o, özü qapını açmağa çıxdı. Mənə zillənən bir baxış ona hər şeyi açıq deyirdi.

Ah yazıq! – o, həyəcanla dedi. Sizin haradan gəldiyinizi soruşmağa ehtiyac yoxdu. Əminəm ki, acından ölürsünüz.

Özü də necə, necə ac olmamaq olar ki, iyirmi dörd saat ərzində ağzıma bir tikə qoymamışam.

Söhbətə davam etmədən və əlavə izahat gözləmədən o, getdi və kolbasa, bir butulka şərabla gəldi. Mən acgözlüklə yeməyə başladım. Kolbasa yoxa çıxmışdı, mən isə bir kəlmə belə danışmamışdım. Xanım Noel mənim iştahımdan vəcdə gəlmişdi. Hər şeyi yeyib bitirdikdən sonra o, mənə qəlyan gətirdi.

*(Ardı var)*

# Suallar: Polis hansı halda atəş aça bilər?

Polis əməkdaşının odlu silahdan istifadəsi "Polis haqqında" Qanunun 26-cı maddəsi ilə tənzimlənir. Qanunvericiliyə əsasən polisin ixtiyarına xüsusi vasitələr verilir ki, bunlar dəyənəklər, əl-qolu bağlama vasitələri, xüsusi təyinatlı gözyaşardıcı qazlar, rezin güllələr, suatan vasitələr, nəqliyyatın məcburi dayandırma vasitələridir. Həmçinin zəruri hallarda istifadə üçün polis əməkdaşının sərəncamında odlu silah da olur.

Polisin odlu silahdan istifadə etməsini şərtləndirən amillər aşağıdakılardır:

Odlu silahla insan həyatına və sağlamlığına real təhlükə yaradan basqın və ya digər zorakılıq edildikdə;

Odlu silahla qiyam və ya kütləvi ixtişaşlar baş verdikdə;

Odlu silah vasitəsilə girov saxlanılan şəxs və ya zəbt olunmuş binalar, tikililər, qurğular, torpaq sahələri və nəqliyyat vasitələri azad edildikdə;

Yaşayış binalarına, habelə müəssisələrin, idarələrin, təşkilatların binalarına qrup halında odlu silahla edilən basqın dəf edildikdə;

İnsan həyatına qəsd olunduqda və məcburi dayandırma vasitələrinin tətbiqi nəticə vermədikdə;

Şəxs yaxalanarkən silahlı müqavimət göstərdikdə;

İnsan həyatına real təhlükə yaradan cinayətin qarşısı alındıqda;

Odlu silahın digər şəxs tərəfindən ələ keçirilməsinin qarşısı alındıqda;

İnsana hücum edən və ya real təhlükə yaradan heyvan məhv edildikdə;

Şübhəli şəxs kimi tutulan, müvəqqəti azadlıqdan məhrum edilən, ya da ömürlük həbsə məhkum olunan şəxsin həbsdən qaçmasının qarşısını alınarkən. Həmçinin bu şəxsin qanunsuz azad edilməsi üçün kənar şəxslər tərəfindən güc işlədildikdə.

### Polis əməkdaşı birbaşa atəş aça bilər, yoxsa xəbərdarlıq etməlidir?

"Polis haqqında" Qanunun 27-ci maddəsində xüsusi vasitələrin və odlu silahın tətbiqi ilə bağlı polis əməkdaşının vəzifələri qeyd olunub. Qanun deyir ki, odlu silahla basqın və ya silahlı müqavimət istisna olmaqla polis əməkdaşı insanların toplaşdığı yerlərdə kənar şəxslərin zərər çəkə biləcəyi hallarda odlu silah tətbiq etməməlidir. Həmçinin qadınlar, azyaşlılar, yanında azyaşlı olan şəxslər, əlil və digər fiziki və psixi qüsurları aşkar bəlli olan insanlara qarşı da odlu silah, fiziki qüvvə və xüsusi vasitələr tətbiq olunmamalıdır.

**Xəbərdarlıq:** Polis əməkdaşı odlu silahı tətbiq etmədən öncə şifahi xəbərdarlıq etməli, ya da xəbərdarlıq atəşi açmalıdır. İstisna hallarda xəbərdarlıq etmədən odlu silahdan istifadə edə bilər.

Ümumiyyətlə, qanun tələb edir ki, fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tam zəruri hallarda tətbiqi yaranmış təhlükəyə mütənasib olmalıdır. Yalnız real təhlükənin qarşısı alınarkən odlu silah tətbiq edilə bilər.

# Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 16 sentyabr 2023-cü il - 31 may 2024-cü il tarixədək qiymətləri (daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)

| 16 sentyabr 2023-cü il - 31 may 2024-cü il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 200 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 25,00 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 50,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 100,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |

**Qeyd:**

1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 25,00 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 75,00 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 100,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 125,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, su attraksionundan, trenajorlardan, mini futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir.

Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Poçt indeksi: AZ 1090. "Koroğlu" metrostansiyasından Mərkəzə 171 nömrəli avtobusla gəlmək olar.

**Mobil telefon: (+994 50) 291-15-51**
**(+994 55) 291-15-51**
**Telefon: (+994 12) 554 47 60**
**Faks: (+994 12) 453 63 33**
**E-poçt: info@khazri.mia.gov.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

# Yeni şifrələmə kompüterinizi qoruyacaq

## Bu, casus proqramlarından qorunmaq üçün kibertəhlükəsizlikdə sıçrayışdır



Beynəlxalq tədqiqat qrupu internet sistemində kənar kanalların hücumunu dəf edən şifrə yaradıb. Tohoku Universitetinin IT mütəxəssisləri dünyanın bir çox yerindən kibermühəndislərlə birlikdə təhlükəsiz internetə çıxış üzərində çalışıblar. Nəticədə SCARF adlanan çoxfunksiyalı qoruma təminatı kodu yaradılıb.

Tohoku Universitetinin Elektrik Rabitəsi Tədqiqat İnstitutunun professoru Rei Ueno tərəfindən hazırlanmış innovativ şifrə inkişaf etmiş sistemlərdə də tam qorumanı təmin edəcək şəkildə yaradılıb. Şifrənin təqdim etdiyi ən böyük yenilik təkcə gündəlik istifadə deyil, həmçinin superkompüterlərin qorunmasını təmin edə bilməsidir.

Müasir kompüter sistemləri xəbərsiz hədəflərdən gizli açarlar vasitəsilə də qoruna bilmirdi. Bunun başlıca səbəbi casusların virus sistemini kompüterin cari iş mexanizmindəki çatışmazlıqdan istifadə edərək tətbiq etməsi idi. SCARF-ın üstünlüyü isə sistem çatışmazlıqlarını tam ödəyə bilməsidir.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik